


"Bakı-Tiflis-Qars dəmir yolu test qatarı üçün hazırdır".

AzNews.az xəbər verir ki, bu sözləri Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidze deyib.

Onun sözlərinə görə, Bakı-Tiflis-Qars dəmir yolu layihəsinin 2015-ci ildə tamamlanacağı deyilir.

Dəmir yolu Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanan sazişə görə inşa edilir. Layihəyə görə dəmir yolunun 105 kilometri yenidən tikilib.

Layihənin tamamlanmasından sonra bu dəmir yolu ilə ildə 17 milyon ton yük daşınacağı gözlənilir.